BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2015*

**UOT 930.2**

# BAKI KOMMUNASININ TÜRK-MÜSƏLMAN ƏHALİSİNƏ QARŞI HƏYATA KEÇİRDİYİ MART SOYQIRIMI XX ƏSRİN 20-30-cu İLLƏRİ SOVET TARİXŞÜNASLIĞINDA

**E.N.ASLANOV**
***Bakı Dövlət Universiteti***
***elshen230579@rambler.ru***

*Bakı Kommunasının rəhbərləri, erməni daşnak elementi vətəndaş müharibəsini milli qırğına çevirdilər.*

*XX əsrin 20-30-cu illər Sovet tarixşünaslığının yazdığı kimi Bakı Zaqafqaziyada Sovet hakimiyyətinin qalası, Bakı Kommunası isə Qafqazda əsas dayağı idi. Amma əslində bu dövr Sovet tarixşünaslığının yazdığı kimi məhz mart hadisələri ilə hakimiyyətsizlik dövrünə son qoyuldu, bolşeviklərin mövqeyi gücləndi.*

**Açar sözlər:** Mart qırğınları, milli istiqlal, Bakı Kommunası

1918-ci ilin martında Bakıda törədilən qanlı faciənin baş ideoloqu və təşkilatçısı Stepan Şaumyan və onun rəhbərlik etdiyi Bakı Kommunasıdır. Üstündən illər ötsə də, XX əsri, Azərbaycan tarixinə və ümumiyyətlə, yaddaşımıza qanla yazılan o müdhiş olayları unutmaq olmur. Əslində unutmağa haqqımız da yoxdur, çünki tarix unutqanlığı heç vaxt heç bir xalqa, millətə bağışlamır.

Sovet dönəmində 1918-ci ildə Bakıda və Azərbaycanın bir çox qəzalarında türk müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımların əsl mahiyyəti sinfi mübarizə adı ilə ört-basdır edilmiş, mart qırğınlarına bəraət qazandırılaraq, xalqa məhz həmin hadisələrdən sonra Bakıda Sovet hakimiyyətinin möhkəmlənməsi ideyası təlqin olunmuşdur.

Mart soyqırımlarının araşdırılmasına dair sanballı tədqiqat əsərlərinin bütöv bir qalereyasını yaratmış, görkəmli tədqiqatçı professor A.İsgəndərov yazır: «1917-1920-ci illərdə erməni və bolşevik birləşmələri tərəfindən türk-müsəlman əhalisinə qarşı törədilən amansız qırğınların qərəzsiz, ətraflı və obyektiv tədqiqi, XX əsrin 90-cı illərinin əvvəllərindən başlandı» (1, 8).

Türk-müsəlman əhalisinə qarşı həyata keçirilən qırğınlara dair əsərlərində professor A.İsgəndərov xalqımıza qarşı planlı surətdə həyata keçirilən bu

soyqırımlarında Bakı Kommunasının yeritdiyi antiazərbaycan xarakterli siyasi xəttin mahiyyətini danılmaz tarixi faktlarla obyektiv surətdə aşkar etməyə nail olmuşdur (2; 3; 4).

1918-ci ilin mart qırğınları ilə bağlı XX əsrin 20-30-cu illər Sovet tarixşünaslığına nəzər saldıqda diqqəti cəlb edən ilk məqamlardan biri problemə dair əsərlərdə Azərbaycan xalqı tərəfindən dəstəklənməyən, yerli müsəlman əhalisi içərisində heç bir sosial dayağa malik olmayan Bakı Kommunasının öz siyasi opponenti olan «Müsavat» partiyasını siyasi səhnədən uzaqlaşdırmaq, istiqlalımızı, müstəqil dövlətimizi qırmaq istəyini beşikdəcə boğmaq üçün bu hadisələri törətməkdə maraqlı olması, onu milli qarşıdurma həddinə çatdırması kimi məkrli planlarını ideoloji səhnə arxasında gizlətmək cəhdidir.

Diqqəti cəlb edən xüsusiyyətlərdən biri də bolşevik yönümlü azərbaycanlı müəlliflərin baş verən hadisələrə münasibətdə milli təəssübkeşlik hissini dolayısı ilə də olsa, nəzərə çarpdırması, bəzən isə Sovet ideoloji maneələrini belə aşmasıdır. Məsələn, N.Nərimanov «Hümmət» qəzetinin 1918-ci il 23 may tarixli sayında «Vətəndaş müharibəsinin milli rəng almaması üçün nə etmək lazımdır?» adlı məqaləsində yazırdı: «… Fanatizmdən uzaq hər bir şəxsə məlumdur ki, Zaqafqaziyada gedən vətəndaş müharibəsində 99 faiz bir millətin nümayəndələri qırılır. İrəvan quberniyası, Lənkəran əyaləti, Quba, Şamaxı bölgələri mənim dediklərimi tamamilə təsdiq edir» (5, 151).

N.Nərimanov əhalini sakitləşdirmək üçün «Təzəpir» məscidinə gedir və müsəlmanlardan alınan silahları geri qaytarmaq barədə qərarın qəbul olunduğunu söyləyir: «Müsəlman qardaşlar, aldanmayın. Fitnə-fəsada inanmayın, qara-qışqırığa, mənəm-mənəm deyənlərə uymayın! Müsavatçıların, daşnakların fırıldaqlarına inanmayın. Onlar firqə düşmənləridirlər. Ayaq altında tapdalanarsınız. Sizdə nə var? Var-yox on dənə pas atmış dayandoldurum, berdanka, otuz-qırx köhnə əfsər tapançası. Nişan almağı da əməlli-başlı bacarmırsınız. Üzünüzü dala çevirib hara gəldi gülləni tolazlayırsınız, kimə dəydi, dəydi. Nə nişan bilirsiz, nə intizam. Bir qədər səbr edin» (6, 136). N.Nərimanovun bu çıxışından da göründüyü kimi, əyər mart qırğını ərəfəsində o Bakı Kommunası tərəfindən tərksilah edilən müsəlman əhalisinin imkanlarını əslində real qiymətləndirərək, onları sakitləşdirməyə, hətta dağılışıb gedəcəkləri təqdirdə vətəndaş müharibəsinin qarşısını almağın mümkünlüyünə inansa da, əslində Stepan Şaumyanın milli qırğının təşkilində maraqlı olmasından xəbərsiz idi. Bu mənada N.Nərimanovun belə bir fikri də təsdiq edir: «Vətəndaş müharibəsi ərəfəsində mənim mənzilimdə müsəlman kommunistlərin yığıncağı keçirilirdi. Mən sübut etməyə çalışırdım ki, vətəndaş müharibəsini indiki vaxtda başlamaq təhlükəlidir, belə ki, o, milli qırğına çevrilə bilər. Mən bunu ona görə deyirdim ki, o zaman Bakıda ancaq daşnaklardan ibarət çoxsaylı erməni hərbi hissələri yerləşirdi» (7, 32).

N.Nərimanov hətta «o, biri gün saat 12-yə qədər vətəndaş müharibəsinin düzgün aparıldığını» söyləyəndə belə, hələ də Bakı Kommunasının yeritdiyi xəttə sadiq qaldığını bir daha nümayiş etdirir, «Lakin saat 12-dən sonra mənə

verilən məlumatlara görə müharibə milli qırğın xarakteri aldı… Bundan sonra Bakı şəhəri üzrə üç gün vəhşiləşmiş daşnakların dəhşətli azğınlığına məruz qaldı» - deyə fikrini davam etdirdikdə, doğrudan da, bolşevizmin türk-müsəlman əhalisinə qarşı çar Rusiyasından miras qalmış məkrli, şovinist siyasətindən xəbərsiz idi. N.Nərimanovun 1925-ci ildə nəşr olunan «Lenin və Şərq» əsəri onun Oktyabr çevrilişinə, bolşevizmə, şəxsən Leninə nə qədər bağlı olduğunu, Azərbaycanın simasında Şərqdə nümunəvi sosialist dövlətinin qurulacağına böyük inam bəslədiyini aydın göstərir (8, 5-9, 12-16).

Lakin sonralar N.Nərimanov bolşevizmin saxta beynəlmiləlçilik adı altında xalqımıza vurduğu maddi və mənəvi zərbələri gördükcə, təbii ki, baxışlarında da dəyişikliklər baş verəcəkdi. Mart qırğınından sonra Bakı neftinin Rusiyaya daşınmasını öncə N.Nərimanov belə dəyərləndirirdi: «Sovet Rusiyası olmadan biz səhəri günü yox olarıq. Deməli, biz nəyin bahasına olursa-olsun, bütün səylərimizi Sovet Rusiyasının mütəmadi olaraq, fasiləsiz neflə təminatına yönəltməliyik» (8, 35). Halbuki bir qədər sonra N.Nərimanov yazacaqdı: «Kerosin tapa bilmədiyinə görə lopa yandıran Azərbaycan kəndlisi, həmin gerosinin Tiflisdə Gəncədəkindən ucuz satıldığını görəndə, istər istəməz bizə tənə edir, günahlandırırdılar… Mən həmişə bu kimi halları qabartdığıma görə «millətçi» adını qazandım» (8, 36-37).

Amma N.Nərimanovun baxışlarında mart hadisələri də təbii ki, öz təsirini göstərdi. Belə ki, Stepan Şaumyandan Bakıdakı qırğınları dərhal dayandırmaqdan ötəri, təkcə sözdə deyil, konkret əməli tədbirlərlə fəaliyyət göstərməyi qətiyyətlə tələb edən N.Nərimanov, əks təqdirdə bütün yoldaşları ilə hakimiyyətdən istefa verəcəyini ultimativ bir tərzdə bəyan etmişdi (9, 150).

Mart qırğınları hadisələrin mərkəzində dayanan Məşədi Əzizbəyovu da sarsıtmışdı. S.M.Əfəndiyevin 1930-cu ildə nəşr olunan və M.Əzizbəyovun həyat və fəaliyyətindən bəhs edən «Azərbaycan yoxsulları mənafeyi uğrunda mübarizəçi» adlı kitabında oxuyuruq: «O, Bakı kommunasının bütün əməli işlərinin hər bir sahəsində iştirak edirdi… Son dərəcə həssas bir qəlbə malik olduğundan Alyoşa Çaparizde ilə bərabər Şamaxı qəzasında bulunduqları zaman daşnak və müsavatçılar tərəfindən dağıdılıb, qanlara qərq edilmiş Şamaxının mənzərəsini yana-yana seyr etmişdi. Görmüş olduğu parçalanmış meyidlər, yandırılmış evlər ona son dərəcə şiddətli bir təsir buraxmışdı və onu büsbütün sarsıtmışdı» (10, 30).

S.M.Əfəndiyev mənsub olduğu siyasi partiyanın maraqları prizmasından çıxış edərək Müsavatı da Şamaxıda törədilən qanlı cinayətlərin baisi daşnaklarla eyni cərgəyə qoyur, bununla da hadisələrin milli deyil, sinfi mübarizə zəminində cərəyan etdiyini əsaslandırmağa cəhd edir: «...Lakin həqiqi bir bolşevik olan Məşədi Əzizbəyov, gördüklərini qəlbində saxlayaraq, bu hadisələri baş vermiş olduğu sinfi və siyasi şəkildə təhlil etməyi bacarmışdı» (10, 30).

S.M.Əfəndiyev, nəhayət özündə qüvvə tapıb qırğınların əsas icraçılarının daşnaklar olmasını etiraf edir, lakin onları əməkdaşlığa cəlb edən Bakı Kommunasını qəti şəkildə cəbhənin əks səngərində yerləşdirir: «Məşədi Şamaxı

qırğınları və yanğınlarını erməni xalqının deyil, bolşevik və Şura hökuməti düşməni olan daşnakların düzəltdiyini hər zaman və hər yerdə izah edirdi» (10, 30-31).

M.Əzizbəyov Şamaxıda gördüyü müsibətləri N.Nərimanova da söyləmişdi. N.Nərimanov yazırdı: «Şamaxıdan qayıdan Əzizbəyov faciəni mənə danışanda göz yaşlarını saxlaya bilmirdi. Onda mənə aydın oldu ki, Sovet hökuməti Bakıda daşnakların əlindədir» (5, 189).

Burada xəmiri daşnak və bolşevik mayası ilə yoğrulmuş, bolşevik partiyasının Qafqaz diyar və Bakı komitələrinin büro üzvü Anastas Mikoyanın 1919-cu ildə Leninə və Stalinə göndərdiyi teleqrammı xatırlamamaq olmur. Belə ki, bu teleqramda A.Mikoyan 1918-ci ildə tarixi Azərbaycan torpaqlarında meydana gələn yeni «erməni hökuməti»nin türk-müsəlman əhalisini planlı surətdə məhv etməsini açıq etiraf edir: «Zaqafqaziya hökumətlərinin heç birində Sovet Rusiyasına meyl yoxdur və bütün hökumətlər, erməni hökumətindən başqa istəmirlər ki, Zaqafqaziyada üçüncü – imperialist qüvvələr olsun… Hakimiyyət başında erməni kadetləri və daşnaklardır. Bolşeviklərin heç izi-tozu da yoxdur. Ölkə daxilində anarxiyadır. Silahlı dəstələrin ağalığı, aclıqdan ölüm, epidemiyalar və bunlara əlavə olaraq müsəlmanların planlı surətdə məhv edilməsi ki, bu da hər bir dəqiqə Azərbaycanın müharibə elan etməsinə gətirib çıxara bilər» (11, 1).

Beləliklə, bu teleqramın da mətnindən bir daha aydın olur ki, Bakıda, bunun ardınca isə Azərbaycanda Sovet hakimiyyətini möhkəmləndirmək üçün azərbaycanlıların planlı surətdə məhvi bolşeviklərin ənənəvi və etibarlı metodlarından biri olubmuş: «Mart qələbəsinin tarixi əhəmiyyəti ondan ibarət oldu ki, bu qələbə Bakıda Sovet hakimiyyətini möhkəmləndirdi və bolşevik təşkilatı başda olmaqla Bakı proletariatına bütün Azərbaycanda sosialist inqilabı uğrunda mübarizəni genişləndirməyə imkan verdi» (12, 281). Bu iqtibas Sovet hökumətinin məlum mart qırğınlarına, təbii ki, tarixi həqiqətləri kobud surətdə təhrif edərək, sırf daşıdığı və üzərində bərqərar olduğu ideologiyanın müəyyən etdiyi siyasi prizmadan yanaşmaq, qiymət vermək, təbliğ etmək cəhdidir. Əslində partiya maraqlarına xidmət etmək zəminində qurulan ideoloji sistemlər tarixi saxtakarlıqdan yan keçmir. Çünki tarix bir elm sahəsi olaraq siyasi maraqlara xidmət edəndə obyektivlikdən uzaqlaşır. Necə ki, gətirilən iqtibasda bir xalqın fiziki məhvinə hesablanan mart soyqırımı AKP tarixində Sovet hökumətini möhkəmləndirən qələbə kimi təqdim olunur.

XX əsrin 20-30-cu illər Sovet tarixşünaslığına obyektiv-elmi prizmadan yanaşdıqda milli faciələrimiz üzərində qurulan beynəlmiləlçi bolşevik «qələbələr»inin bir çox təzadlı məqamları üzə çıxır.

Məsələn, Y.Ratqauzer, A.Dubner 1917-ci ilin oktyabrından 1918-ci ilin martınadək dövrü ikihakimiyyətlilik, Bakı Soveti hakimiyyətinin formal mövcud olması dövrü kimi xarakterizə etmişlər və yalnız mart qırğınlarından sonra hakimiyyətin bolşeviklər tərəfindən ələ keçirilməsini, hadisələrin dinamikası zəminində bolşevik-daşnak tandeminin yaranmasını, nəticədə isə sinfi

mübarizənin milli qarşıdurma, soyqırımı ilə əvəz olunmasını təkzibedilməz faktlarla təsvir etmişlər (9, 144-150, 154-160; 13, 32-56, 92-93).

Y.Ratqauzer yazırdı: «Əldə olunan qələbə Azərbaycanın inqilab tarixində yeni səhifə açdı. Aprelə qədər Sovet hökuməti burada faktiki olaraq formal xarakter daşıyırdı… Mart qələbəsi Soveti (yəni Bakı Sovetini A.E.) sosialist dəyişikliklərinin geniş yoluna çıxartdı» (9, 154-155).

Y.Ratqauzerin «Bakıda inqilab və vətəndaş müharibəsi» adlı əsərinin maraq doğuran, elmi-obyektivlik baxımından böyük əhəmiyyət kəsb edən cəhətlərindən biri Bakı Sovetinin Qırmızı Ordunun təşkili zamanı daşnak-erməni elementlərindən istifadə etməsini, zabit heyətinin isə, demək olar ki, əksəriyyətinin erməni olması səbəbindən vətəndaş müharibəsini milli qırğına çevirmələrini açıq-aşkar bəyan etməsidir (9, 149).

Y.Ratqauzer mart qırğınlarının baş vermə səbəbini də aydın bir şəkildə izah edir: «Bakıda hakimiyyət uğrunda mübarizədə qələbə çalmaq Sovet hakimiyyətinin dayaqlarının təkcə Zaqafqaziyada möhkəmlənməsi deyil, eyni zamanda bütün diyarda Sovet hakimiyyətinin qurtuluşu demək idi. Bakı nefti ümumi Rusiya miqyasında inqilabı xilas etdi, Bakının itirilməsi isə inqilab üçün saysız-hesabsız fəlakətlərin başlanğıcı demək idi» (9, 146). Beləliklə, müəllif bütün Zaqafqaziyada Sovet hakimiyyətinin yeganə dayağı olan Bakıda törədilən qırğınların siyasi səbəblərini iqtisadi amillərlə sintezdə izah etmişdir.

Bakıda Sovet hakimiyyətinin dayaqlarının möhkəmləndirilməsi zərurətini A.Rayevski də siyasi amillərlə yanaşı, neft amilində görür: «Son on-on beş ildə bütün ölkələrin imperialistləri qiymətli sərvət olan neft mədənlərinə yiyələnmək uğrunda bir-birilərilə amansız mübarizə aparırlar. Öz təkində 400 milyard pud bu qiymətli sərvətə malik olan Bakı neft rayonu yağlı bir tikə kimi çoxlarını cəlb edir… Sovet hökuməti 1918-1919-cu illərdə həmişəlik Bakıya, onun neftinə yiyələnmək istəyən qüvvələrə belə güzəşti edə bilməzdi» (14, 8-9).

Deməli, ümumrusiya miqyasında ac-yalavac rus inqilabını qoruyub saxlamaq üçün Sovet hökuməti Bakı nəyin bahasına olursa-olsun yiyələnməliydi, bu şəhəri əldən verməməliydi. 20-30-cu illər Sovet tarixşünaslığı bir çox hallarda Bakının və Azərbaycanın yerli müsəlman əhalisi arasında bolşevizm ideyalarının, bolşevikyönümlü təşkilat və partiyaların heç bir sosial dayağa malik olmadığını etiraf etməkdən çəkinmir (15, 174, 214, 237-138; 16, 3-8, 10-13, 100-105, 108; 17, 18-19, 20-24).

Hətta belə fikirlərlə mart qırğınlarının təşkilatçısı və baş dirijoru Stepan Şaumyanın və oğlu Suren Şaumyanın da əsərlərində rastlaşırıq (18, 145-147, 149, 156-158, 159-165; 19, 24-25).

Bəs, belə olan halda nə etməli? Bax, bu sualın cavabında ata və oğul Şaumyanlar bir-birini inkar edirlər. Oğul Şaumyan yazır: «Biz mart hadisələrinə qədər mübarizənin labüd olduğunu bilirdikmi? Bilirdik. Biz bu mübarizəni martın ortalarında istəyirdikmi? Xeyr, istəmirdik. Biz hazır deyildik» (19, 19). Stepan Şaumyan isə həmin günlərdə od püskürürdü: «Bizim siyasətimiz vətəndaş müharibəsi siyasətidir. Kim bunun əleyhinə gedirsə, bizə düşmən-

dir… Silahı yerə qoymaq Bakını əldən vermək, bütün Zaqafqaziyada inqilabı dəfn etmək deməkdir» (18, 163).

Suren Şaumyan gerçəklik qarşısında aciz qalaraq daşnakların müsəlmanlara nifrət bəslədiyini, özünüqoruma instinktinin onları sovet hakimiyyətini dəstəkləməyə vadar etməsini etiraf etməklə, əslində Bakı Kommunasının məhz erməni əhalisinin, «Böyük Ermənistanın» maraqları uğrunda antiazərbaycan siyasəti yeritdiyini təsbit və təsdiq etmiş olur (19, 40). Belə çıxır ki, Bakı Kommunası burada təpədən dırnağadək silahlanmış, Qırmızı Ordu markası altında gizlənmiş erməni daşnaklarını, öz vətənində silahsız, yüksək tolerantlığı ilə seçilən dinc azərbaycanlılardan «qorumaq üçün» sipər rolunu oynamışdır?

Axı, Suren Şaumyan: «Daşnaklar bolşeviklərlə ona görə müttəfiq oldular ki, bu bloku özləri üçün, erməni əhalisi üçün ən etibarlı hesab edirdilər» - deyə, yazmaqla bir daha mart hadisələrinin əsil mahiyyətinə istəsə də, istəməsə də aydınlıq gətirmiş olur (19, 40). Daha sonra Suren Şaumyan Şamaxıda, Yelizavetpol quberniyasında, Dağlıq Qarabağdakı Qızıl Ordu sıralarının da əsasən ermənilərdən ibarət olmasını köhnə zamanlardan üzü bəri neft sənayeçilərinin orduya çağırılmaması ilə, ermənilərin isə əksinə daha çox cəbhəçi, hərbçi olması ilə izah edir. Onda təbii olaraq belə bir sual meydana gəlir: «Nə üçün Suren Şaumyan «Köhnə zaman» dedikdə bunun çar Rusiyası dövründə azərbaycanlıların ordu sıralarına çağırılması kimi bədnam bir siyasəti bolşeviklərin də davam etdirməsinə aydınlıq gətirmir? Bu, əslində türk-müsəlman əhalisinə qarşı çar Rusiyasının əsrlər boyu yeritdiyi milli ayrı-seçkilik siyasətinin, ikili standartların Azərbaycanda erməni libasında zühur edən bolşeviklərin hakimiyyəti dövründə də eyni ssenari ilə həyata keçirilməsindən başqa bir şey deyildi: «İnqilaba qədərki Rusiya hökumətinin siyasəti türk əhalisinin təcridinə yönəlmişdi. Bu xalq həm maddi, həm də mənəvi baxımdan ən axırıncı planda idi. İnqilabçı proletar partiyası məhz bu səddi, amili aradan qaldırmadı və heç bir xalqın dəyərindən üstün olmadığını sübut etməliydi. Çox təəssüf ki, bolşeviklər bu işin öhdəsindən gələ bilmədilər» (9, 10).

Elə bu səbəbdəndir ki, St.Şaumyan Bakı qırğınlarının davamı olaraq, Azərbaycanın digər bölgələrində davam etdirilən soyqırımlarını belə səciyyələndirirdi: «Lənkəranda, Dərbənddə, Qubada, Şamaxıda, Salyanda bizim Qızıl Ordudan olan qabaqcıl silahdaşlarımız Sovet Hökumətininqəti qələbəsi üçün vuruşurlar. …Müəyyən etdiyimiz vəzifələri həyata keçirmək üçün bizə güclü Qırmız Ordu lazımdır ki, başladığımız vətəndaş müharibəsini davam etdirsin» (18, 129). Axıdılan günahsız insan qanından doymayan St. Şaumyan təbii ki, bu qırğınları «qəti qələbə»yədək davam etdirməklə xalqımızın iradəsini düşündüyü kimi qıra bilmədi, xof taktikası bu dəfə əks effekt verdi, Bakı Kommunasının labüd süqutunu bir az da sürətləndirdi, Rusiyadan ayrılaraq müstəqil, demokratik dövlət qurmaq əzmimizi daha da artırdı.

Yaranması kimi, süqutu da siyasi reallıqdan çox, avantüraya söykənən Bakı Kommunasının həqiqi simasını öyrənməklə milli tariximizin taleyüklü bir çox məqamlarına aydınlıq gətirə bilərik.

Belə ki, 1924-cü ildə işıq üzü görən Stepan Şaumyanın «Məqalə və nitqləri» (1908-1918) adlı kitabı qəlbi xalqımıza nifrət hissi ilə dolu bu ziddiyyətli şəxsin iç üzünü elə kitab müəllifinin öz sözləri ilə aydın əks etdirir. Millətçilikdən ağızdolusu danışan, milli muxtariyyətdən dəm vuran Stepan Şaumyan «milli ərazi» məsələsini daha çox qabardaraq dili və mədəniyyəti olub, «ayağı altında milli torpağı olmayan» xalqın halına daha çox acıyır. St.Şaumyan bu zaman təbii ki, mənsub olduğu erməni xalqını nəzərdə tutur və ona müraciət edərək, ən son halda hər şeyi qorumağı tövsiyə edir (18, 46). O zaman təbii ki, sual yaranır. Olmayan ərazini necə qorumaq olar? Yox, əgər söhbət dilin və mədəniyyətin qorunmasına, milli hevsiyyata sayqıdan gedirsə onda nə üçün St.Şaumyan Bakının Azərbaycanın paytaxtı olması fikrini heç cür qəbul edə bilmirdi? (18, 135) Nə üçün St.Şaumyanın özünün də etiraf etdiyi kimi, Azərbaycan məfkurəsinə yad bolşevizmi zorla ona qəbul etdirmək istəyirdi? (18, 109, 134-141) 1918-ci ilin martında Bakıda və Azərbaycanın digər bölgələrində törədilən qırğınların əsl mahiyyəti də bu sualların cavabında gizlənir. Yox, əgər söhbət dilin və mədəniyyətin qorunmasından gedirsə bu yalnız, müstəqil dövlətin yaranması, mövcudluğu şəraitində mümkündür ki, Şaumyan da hər vəchlə bunun əleyhinə idi: «Ayrılma hüququnu biz qəbul etmirik. Ayrılma (öz müqəddəratını həll etmə - E.N.) bizim plana uyğun gəlmir. Bir sözlə, biz ayrılmanın əleyhinəyik» (18, 82). Bax, mart qırğınları Bakı Kommunasına da elə buna görə lazım idi: «Gərək nə qədər həyasız olasan ki, axıdılan qanların məsuliyyətini Sovet hökumətinin üstünə yıxasan… Əgər biz buna getməsəydik, bəlkə də on dəfələrlə çox qan tökülər, Sovet hakimiyyəti həmişəlik dəfn edilər, Bakı Azərbaycan xanlığının paytaxtına çevrilərdi» (18, 135). Məhz, buna görə də St.Şaumyanın milli muxtariyyət və müstəqil dövlətçilik ənənələrimizin bərpası ilə heç cür barışa bilməməsi səbəbindən formal olaraq işlətdiyi bəzəkli sözlər ancaq erməni xalqı və «Böyük Ermənistan» üçün nəzərdə tutulurdu. Erməni millətçiliyi mahiyyətcə əslində rus millətçilərinin yeritdiyi ifrat millətçilikdən heç nə ilə fərqlənmirdi. İ.Kanadpev yazırdı: «Mən rusları çox gözəl müstəmləkəçilər hesab edirəm. Onlar bütün ölkəni (əslində imperiyanı – E.N.) xalis rus diyarına yarım əsr ərzində elə çevirirlər ki, həmin torpaqların keçmiş sakinlərindən heç bir xatirə belə qalmır» (20, 43).

Türk-müsəlman əhalisinə qarşı törədilən mart qırğınları təkcə xalqımızın milli istiqlal və öz dövlətini qırmaq istəyinə qarşı bolşevik-erməni tandeminin necə çevik işləməsini göstərməklə kifayətlənməyərək, eyni zamanda çar Rusiyası dövründən miras qalan «Parçala hökm sür» strategiyasının bolşevik Rusiyası üçün də məqbul olduğunu, erməni-müsəlman qırğınlarının isə Ruslar üçün regionda söz sahibliyini qoruyub saxlamaq, ermənilər üçün isə Azərbaycana qarşı hər zaman əsassız ərazi iddiaları ilə çıxış etmək üçün misilsiz taktiki gediş fürsətini verdiyini aşkar surətdə nümayiş etdirdi. ADR hökumətini devirmək üçün A.Mikoyanın Lenin və Stalinə ünvanladığı irəlidə məlumat verdiyim teleqramında da Zaqafqaziyada Sovet Rusiyasını ancaq «Ermənistanı genişləndirmək üçün böyük planı olan» erməni hökumətinin dəstəklədiyini bildirməsi,

həmçinin bu gün xalqımızın ən ağrılı yeri olan «Qarabağ» problemi deyilənləri təbii ki, bir daha təsdiq edir (11, 10). Məhz bu səbəbdəndir ki, 20-30-cu illər Sovet tarixşünaslığı mart qırğınlarına böyük önəm verir. Suren Şaumyan məhz bu qırğınlara qədər ümumiyyətlə bolşeviklərin hakimiyyətdə olmasını qəbul etmir: «mart hadisələri ilə «hakimiyyətsizlik» dövrünə son qoyuldu» - deyə yazır (19, 20) S.Sef mart qırğınını «Bakı Oktyabrı» adlandırır (21, 134, 138, 144-146; 22, 360-361).

E.Burcalov, Q.Şteyn və başqa Sovet tarixçiləri də mart hadisələrindən danışarkən «qırğın» sözünü «qələbə», milli faciəmizi isə Sovet hökumətinin Bakıda və bütün Zaqafqaziyada təntənəsi kimi təqdim edirlər (23, 42-43, 44, 45-51; 24, 33-64; 25, 152-156).

Burada Yusif Vəzir Çəmənzəminlinin aşağıdakı fikrini xatırlamamaq olmur: «Bolşevizmin qüvvəti Rusiyadakı ədalətsizlikdən nəşət etmişdir… Mən, əsasa, bolşevizmə ziddəm. Bolşevizm heç bir millət üçün heç bir səadət gətirməz» (26, 40-41).

Böyük ədib və siyasi xadim Y.V.Çəmənzəminlinin bu sözlərini tarix və zaman dönə-dönə təsdiq etdi. Tarix təsdiqini alan həqiqətləri isə tarixi saxtalaşdırmaqla təhrif etmək olmur.

**ƏDƏBİYYAT**


1. İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. Bakı: Adiloğlu, 2006
2. İsgəndərov A. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı: Mütərcim, 1997, 184 s.
3. İsgəndərov A. Azərbaycanda 1917-1918-ci illərdə türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilən dissertasiyanın avtoreferatı. Bakı: MEQA, 2004, 85 s.
4. İsgəndərov A. Azərbaycan həqiqətləri 1917-1920. Bakı: Elm və təhsil, 2012, 226 s.
5. Нариман Нариманов. Избранные произведения: В 3-х томах. Т.II. Баку: Азернешр, 1989,768 с.
6. Süleymanov Manaf. Eşitdiklərim, gördüklərim. Bakı: Azərnəşr, 1987, 320 s.
7. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair. Bakı: Azərnəşr, 1992, 34 s.
8. Quliyev Q. Nəriman Nərimanovun tamamlanmamış məktubu //Həqiqət, yalnız həqiqət. Tariximizin ağ ləkələri. Məqalələr toplusu. Bakı: Azərnəşr, 1991, 160 s.
9. Ратгаузер Я. Революция и гражданская война. Часть первая, 1917-1918гг., Баку: Красный Васток, 1927, 221 с.
10. Əfəndiyev S.M. Azərbaycan yoxsulları mənafeyi uğrunda mübarizəçi. Bakı: Azərnəşr, 1930, 32 s.
11. Kazımoğlu N. Arxiv sənədləri şahidlik edir. // Tarix qəzeti. №25. 21. sent. 1991, s.1-4
12. Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. Bakı: Azərnəşr, 1964, 817 s.
13. Дубнер А. Бакинский пролетариат в годы революции (1917-1920). Баку: АЗГНИИ. 1931, 183 с.
14. Реавский А. Английские друзья и Мусаватские патриоты. Баку: АЗГИЗ, 1927, 72 с.
15. Беленкий С., Манвелов А. Революция 1917 года в Азербайджане (хроника событий). Баку: АЗГИЗ, 1927, 253 с.
16. Караев А. Минувшие дни. Баку: Бакинский рабочий ,1926,127с.
17. Караев А. Бакинский пролетариат и азербайджанская деревня. Баку: АЗГИЗ, 1929, 77 с.

18. Шаумян С.Г. Статьи речи. Баку: Бакинский рабочий ,1924, 231с.
19. Шаумян С. Бакинская Коммуна. Баку: Красный Восток, 1927, 117 с.
20. Канадлевь И. Очерки Закавказской жизни. С.Петербургъ: А.Е.Колпинский, 1902, 128 с.
21. Сеф С. Борьба за Октябрь в Закавказье. Тбилиси: ЗАК, Книга, 1932, 162 с.
22. Сеф С. Революция в 1917 году в Закавказье (документы и материалы). Тблиси: Акционерное общ. ЗАК.Книга, 1927, 391 с.
23. Бурджанов Э. Двадцать шесть Бакинских Комиссаров. М.: Красный пролетарий, 1938, 112 с.
24. Штейн Г. Бакинская Коммуна. Баку: Красный Восток, 1928, 82 с.
25. История Гражданской войны в СССР. В 5-и томах. II т. М.: Политическая лит., 1947, 623 с.
26. Çəmənzəminli Y.V. Müstəqilliyimizi istəyiriksə… Bakı: Gənclik, 1994, 71 s.

## ИСТОРИОГРАФИЯ 20-30 ГОДОВ XX ВЕКА О ГЕНОЦИДЕ, ОСУЩЕСТВЛЕННОГО БАКИНСКОЙ КОММУНОЙ ПРОТИВ ТЮРКСКО-МУСУЛЬМАНСКОГО НАСЕЛЕНИЯ

**Э.Н.АСЛАНОВ**

**РЕЗЮМЕ**

Баку, как утверждает Советская историография 20-30 годов XX века – цитадель Советской власти в Закавказье, а Бакинская Коммуна главный оплот Советской власти на Кавказе. Но на самом деле, как пишет Советская историография указанного периода, что именно мартовскими событиями закончился период безвластия и укрепилась позиция большевиков. Армяно – дашнакские элементы, а главным образом, руководство Бакинской Коммуны пытались превратить гражданскую войну в национальную резню.

**Ключевые слова:** мартовская резня, национальная независимость, Бакинская Коммуна

## MARCH GENOCIDE COMMITTED BY BAKU COMMUNE AGAINST TURKISH-MUSLIM POPULATION IN THE 20S-30S SOVIET HISTORIOGRAPHY

**E.N.ASLANOV**

**SUMMARY**

As the 20s-30s Soviet historiography notes, Baku was the tower of the Soviet government in the Caucasus, while Baku Commune was its fulcrum in the Caucasus. However, in fact, March events strengthened the Bolsheviks’ position.

**Key words:** March genoside, national independence, Baku Commune